

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 3 iyul 2024-cü il №48 (2859) https://mod.gov.az Qiyməti 30 qəpik

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Sülh sazişinin başlıca şərti Ermənistanın konstitusiyasının dəyişdirilməsidir

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də Qırğız Respublikasının, Kanadanın və Filippin Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin etimadnamələrini qəbul edib. Səfirlər etimadnamələrini Prezident İlham Əliyevə təqdim ediblər. Sonra dövlətimizin başçısı səfirlərlə söhbət edib.*



Qırğız Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri Maksat Mamıtkanov Qırğız Respublikasının Prezidenti Sadır Japarovun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara və ən xoş arzulara görə minnətdarlığını bildirib, onun da salamlarını Sadır Japarova çatdırmağı xahiş edib.

Söhbət zamanı əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsində inkişaf etməsi məmnunluqla qeyd olunub.

Son illərdə ikitərəfli münasibətlərimizin böyük dərəcədə inkişaf etdiyini və keyfiyyətcə yeni mərhələyə qalxdığını deyən Azərbaycan Prezidenti dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunub, ənənəvi dostluq və qardaşlıq əlaqələrimizin möhkəmləndiyini vurğulayıb.

Prezident İlham Əliyev ölkələrimiz arasında ticarət, iqtisadiyyat, investisiya, nəqliyyat və digər sahələrdə mühüm layihələrin həyata keçirildiyini məmnunluqla qeyd edib.

Dövlətimizin başçısı Ağdam rayonunda Qırğızıstanın məktəb tikintisi layihəsini və quruculuq prosesinə göstərdiyi dəstəyi vurğulayaraq buna görə Qırğız Prezidentinə və xalqına bir daha minnətdarlığını bildirib, bunu qardaşlıq əlaqələrimizin nümayişi kimi dəyərləndirib.

Prezident İlham Əliyev əməkdaşlığımızın genişləndirilməsi üçün qarşıda böyük planların durduğunu deyib və əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə edib.

Dövlətimizin başçısı Azərbaycan və Qırğızıstan rəhbərliyində qardaş ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi və mövcud potensialın reallaşdırılması üçün qarşılıqlı iradənin olduğunu bildirib.

Türk Dövlətləri Təşkilatı çərçivəsində ölkələrimizin əməkdaşlığına toxunan Prezident İlham Əliyev bu təşkilatın bir ailə olduğunu qeyd edib.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatının ilk dəfə Şuşa şəhərində keçiriləcək qeyri-rəsmi Zirvə görüşünün əhəmiyyətinə toxunulub, bu tədbirdə dövlət başçıları arasında aparılacaq dialoq və müzakirələrin önəmi vurğulanıb.

Azərbaycan Prezidenti səfirə fəaliyyətində uğurlar arzulayıb.

Xoş sözlərə görə minnətdarlığını bildirən Maksat Mamıtkanov münasibətlərimizin bundan sonra da möhkəmlənəcəyinə əminliyini vurğulayıb, əlaqələrimizin genişləndirilməsi ilə bağlı Qırğızıstan Prezidentinin ona tapşırıqlar verdiyini deyib və bu istiqamətdə səylərini əsirgəməyəcəyini bildirib.

Ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin yüksək səviyyədə olduğunu deyən səfir qeyd edib ki, Azərbaycanın Qırğızıstana yatırdığı irihəcmli investisiyalar ölkə iqtisadiyyatının inkişafına böyük kömək göstərir.

Əməkdaşlığımızın möhkəmləndirilməsi üçün geniş potensialın olduğunu vurğulayan Maksat Mamıtkanov deyib ki, dövlət başçılarımız arasında olan münasibətlər və onların göstərdiyi səylər əlaqələrimizin uğurlu inkişafının əsasını qoyub.

Qırğızıstan Prezidentinin bu ilin aprelində ölkəmizə dövlət səfərinin əhəmiyyətinə toxunan səfir bu səfərin çox uğurlu olduğunu və yaxşı nəticələr verdiyini vurğulayıb.

O, Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılmasının əhəmiyyətinə toxunub, onun ölkələrimiz arasında əməkdaşlığın inkişafına verdiyi töhfəni qeyd edib.

Maksat Mamıtkanov Qırğızıstanda İssık-Kul gölünün sahilində Azərbaycan tərəfindən beşulduzlu mehmanxananın inşasının ölkəsində kurort sahəsinin inkişafında böyük rol oynayacağını deyib.

Diplomat görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun irsinə və onun xatirəsinə Azərbaycan tərəfindən göstərilən ehtirama görə minnətdarlığını bildirərək, Sadır Japarovun ölkəmizə dövlət səfəri zamanı Azərbaycan və Qırğızıstan prezidentlərinin iştirakı ilə görkəmli qırğız yazıçısının Bakıda abidəsinin açılışını məmnunluqla xatırlayıb.

Azərbaycan Prezidenti qeyd edib ki, Çingiz Aytmatov bütün türk sivilizasiyasının övladıdır və dünyada böyük şöhrətə malikdir.

Görüşdə COP29 çərçivəsində Azərbaycanın və Qırğızıstanın birgə təşəbbüs imkanları barədə fikir mübadiləsi aparılıb.

* * *

Kanadanın ölkəmizdə yeni təyin olunmuş səfiri Kevin Hamilton Azərbaycanın çox gözəl, dinamik inkişaf edən və mühüm ölkə olduğunu vurğulayıb. Azərbaycan ilə Ermənistan arasında əhatəli sülh müqaviləsi imzalanarsa, regionda əməkdaşlıq üçün yeni imkanların yarana biləcəyinə ümidvarlığını bildirən səfir deyib ki, biz regionda daha yaxşı münasibətlərin qurulmasını arzulayırıq ki, bunun nəticəsində bizim həm Azərbaycan, həm də Ermənistan ilə əlaqələrimiz inkişaf etsin.

Səfir Kanadanın həmişə Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bildirərək, ədalətli, əhatəli və daimi sülh müqaviləsi üzərində fəal iş aparıldığından məlumatlı olduğunu deyib.

Dövlətimizin başçısı torpaqlarımızın işğalı dövründə orada etnik təmizləmə və soyqırımının törədildiyini, ərazilərimizin kütləvi şəkildə dağıdıldığını qeyd edib. Prezident İlham Əliyev həmin dövrdə münaqişənin həlli ilə bağlı çox böyük səylər göstərildiyini, lakin bu səylərin uğursuz olduğunu bildirib. Belə ki, BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü münaqişənin həllinə nail ola bilməyib, daha doğrusu, olmaq istəməyib. Onların hamısı Ermənistanın həyata keçirdiyi işğalın müxtəlif səbəblər üzündən həmişəlik olmasını istəyib. Dövlətimizin başçısı bu qənaətə prezidentlik fəaliyyətində öz şəxsi təcrübəsi əsasında gəldiyini deyib. Prezident İlham Əliyev 2003-cü ilin sonundan başlayaraq keçmiş Minsk qrupu üçlüyü və Ermənistan tərəfi ilə dəfələrlə görüşdüyünü xatırlayıb və bütün bunların heç bir nəticə vermədiyini deyib. Dövlətimizin başçısı bildirib ki, keçmiş Minsk qrupunun üzvləri və Ermənistan tərəfi bunu istəmirdi. Ermənistan tərəfi torpaqlarımızı həmişəlik işğal altında saxlamaq istəyirdi.

Dövlətimizin başçısı bildirib ki, hazırda biz ikitərəfli səviyyədə daha yaxşı nəticələr görürük. Kiminsə tərəfindən bu prosesə müdaxilə yoxdur. Sərhədlərin delimitasiyası, hətta nadir hal olan demarkasiya məsələlərində razılıqlara gələ bilirik. Azərbaycan Prezidenti qeyd edib ki, düzdür, hələ sülh müqaviləsi imzalanmayıb, lakin artıq sərhədlərin delimitasiyasına nail olunub.

Prezident İlham Əliyev vurğulayıb ki, COP29 məsələsində Ermənistan bizim bu tədbirə ev sahibliyi etməklə bağlı məhdudiyyətini aradan qaldırıb, biz isə onların COP-un idarəedici orqanlarında iştirakına qarşı çıxmadıq. Dövlətimizin başçısı qeyd edib ki, açığı, o, belə hesab etmir ki, Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsi bizim hansısa bir ölkə ilə ikitərəfli münasibətlərimiz üçün mühüm rol oynaya bilər.

Qlobal səviyyədə diplomatik fəaliyyətimizi şaxələndirdiyimizi deyən dövlətimizin başçısı Azərbaycan ilə Avropa İttifaqının 10 ölkəsi arasında strateji tərəfdaşlıq haqqında bəyannamənin olduğunu qeyd edib və vurğulayıb ki, bu sənədlərin çoxu torpaqlarımızın işğalı zamanı Azərbaycan ilə Ermənistan arasında heç bir sülh müqaviləsi olmadığı bir dövrdə imzalanıb. Bu baxımdan Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin olmaması hər hansı bir ölkənin regionda fəaliyyətinin səviyyəsinin müəyyənləşdirilməsi üçün bir amil ola bilməz.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Sülh sazişinin başlıca şərti Ermənistanın konstitusiyasının dəyişdirilməsidir



(Əvvəli 1-ci səhifədə)

Dövlətimizin başçısı bir məqamı da vurğulayıb ki, Ermənistan 28 illik bir dövrdə beynəlxalq hüququn fundamental prinsipləri ilə razılaşmaq istəmədi. Onlar bütün humanitar qanunları pozdular, BMT Təhlükəsizlik Şurasının erməni qoşunlarının Azərbaycanın işğal olunmuş torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən müvafiq qətnamələrinə məhəl qoymadılar. Heç kim onlara zərrə qədər də irad tutmurdu. Münaqişə barədə danışan bir çox ölkələr Azərbaycanın ərazi bütövlüyünə sadiqlik bəyan etmirdilər. Prezident İlham Əliyev vurğulayıb ki, indi - biz Ermənistanın işğalçı ordusuna döyüş meydanında qalib gəldikdən və onları torpaqlarımızdan qovduqdan sonra bizim ərazi bütövlüyümüzə dəstəklə bağlı bəyanatlar eşidirik. Amma biz bunu artıq özümüz təmin etmişik. Kiminsə bizim ərazi bütövlüyümüzü tanıyıbtanımaması mahiyyət kəsb etmir. Azərbaycan Prezidenti qeyd edib ki, bu, torpaqlarımız işğal altında olan bir dövrdə önəmli idi. Bəli, bir sıra Qərb ölkələrində ermənipərəst sentimentlərin mövcudluğu, erməni diasporunun rol oynaması məlumdur. Amma beynəlxalq hüquqa gəldikdə bu emosiyalar kənara qoyulmalıdır. Lakin bunu anlamaq önəmlidir ki, 28 illik bir dövrdə razılaşdırıla bilməyən məsələlərin 1-2 ilə həll edilməsi çətindir. Həm də Azərbaycan ilə Ermənistan arasında substantiv danışıqlara demək olar ki, dekabr ayında başlanılıb. Çünki ondan əvvəl Ermənistan sülh müqaviləsinə dırnaqarası "Dağlıq Qarabağ" məsələsini salmaq istəyirdi və bu, qəbuledilməz idi. Prezident İlham Əliyev vurğulayıb ki, çünki bu, bizim daxili məsələmizdir. Beləliklə, separatçı rejim ləğv edildikdən sonra dekabr ayından başlayaraq danışıqlar cəmi 6 aydır gedir. Dövlətimizin başçısı bildirib ki, buna zaman lazımdır və əlbəttə, sülh sazişinin başlıca şərti Ermənistan konstitusiyasının dəyişdirilməsidir. Çünki onun tərkibində Azərbaycana qarşı ərazi iddiaları var və bu, baş verməyənə qədər sülh sazişi imzalanmayacaq. Bu, məlum məsələdir.

Azərbaycan Prezidenti qeyd edib ki, bununla yanaşı, hesab edir ki, danışıqlar prosesi çərçivəsində kifayət qədər sürətli irəliləyirik. Dövlətimizin başçısı deyib: "Zənnimcə, sülh müqaviləsinin mətni, ən azı əsas prinsipləri üzərində işi bir neçə aya yekunlaşdıra bilərik. Bildirim ki, işğal dövründə vasitəçilərin planı Madrid prinsipləri adlandırılan əsas prinsiplərlə bağlı razılığa gəlməkdən ibarət idi. Onlar paraflanmalı və daha sonra isə mətn tərtib edilməli idi. Hesab edirik ki, bu, bir variant ola bilər - əsas prinsiplərlə bağlı razılıq əldə edilsin, onlar paraflansın və daha sonra mətn üzərində iş getsin". Prezident İlham Əliyev qeyd edib ki, bu, onların konstitusiyaya dəyişiklik edəcəkləri təqdirdə baş tutacaq.

Qayıdış hüququ ilə əlaqədar səfirin şərhinə cavabında Azərbaycan Prezidenti bildirib ki, qayıdış hüququ qarşılıqlı şəkildə təmin olunmalı, o cümlədən də Qərbi Azərbaycan İcmasının nümayəndələrinə şamil edilməlidir. Bu xüsusda dövlətimizin başçısı keçən yüzillikdə, sonuncusu 1988-ci ildə olmaqla müxtəlif mərhələlərdə köklü Azərbaycan əhalisinin indiki Ermənistan ərazisindən etnik təmizləməyə məruz qaldığını və onlara aid maddi-mədəni irsin tamamilə dağıdıldığını qeyd edib.

Səfir dövlətimizin başçısına hörmətini ifadə edərək, məlumatlara görə minnətdarlığını bildirib.



* * *

Filippinin ölkəmizdə yeni təyin olunmuş səfiri Henri Jr. Bensurto Filippin Prezidenti Ferdinand Romualdez Markosun salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Filippinin dövlət başçısına çatdırmağı xahiş edib.



Azərbaycan Prezidenti ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafını qeyd edərək beynəlxalq təşkilatlar çərçivəsində, həmçinin turizm, investisiyalar sahələrində əməkdaşlığa və insanlar arasında təmaslara toxunub, hökumət nümayəndə heyətlərinin səfərlərinin önəmini vurğulayıb.

Səfir Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyinin çox uğurlu olduğunu, bu məsələdə böyük bir irs qoyduğunu və ölkəmizin bu Hərəkatın təsisatlanması istiqamətində ciddi addımlar atdığını qeyd edib.

COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıran Henri Jr. Bensurto Filippinin də bu tədbirdə yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunacağını deyib.

Dövlətimizin başçısı ölkəmizin həm Qoşulmama Hərəkatına, həm də COP29-a sədrliyi ilə bağlı təbriklərə və xoş sözlərə görə təşəkkürünü bildirib.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uğurla həyata keçirilməsinə üzv ölkə kimi Filippinin göstərdiyi dəstəyə görə minnətdarlığını ifadə edib.

Dövlətimizin başçısı COP29 çərçivəsində Azərbaycanın Qlobal Cənubun tərkib hissəsi olaraq ölkələr arasında həmrəyliyin gücləndirilməsinə və körpülərin qurulmasına çalışacağını vurğulayıb.

**AZƏRTAC-ın materialları əsasında**

---

*Nümunəvi xidmət*

# “Biz Vətənin övladlarıyıq”

***Heyətlər dərs keçirdilər. Təkərli ağır toplar qoşqulardan ayrılaraq ərazidə düzülmüşdü. Heyət komandirləri dərs cədvəlinə uyğun tabeliyində olan heyət üzvlərinə vəzifələri izah edir, öyrətdiklərini əsgərlərdən soruşurdular. Baş leytenant Süleyman Ağayev dərsin gedişini nəzarətdə saxlayırdı. Ərazidə canlanma müşahidə olunurdu.***



Zabitin yanında dayanan, sinəsində səyyar rabitə qurğusu olan əsgər aparatın dəstəyini qulağına tutub əvvəl dinləyir, sonra isə dəstəyin üstündəki düyməni sıxıb rəqəmlər söyləyirdi. Danışanda dəstəyin qulaqcığından gələn səs, uğultu ətrafdakı sükutu pozurdu. Əsgər dərs yerində heyət üzvləri, həmçinin hissə növbətçisi ilə müntəzəm əlaqə saxlayırdı. Növbətçidən aldığı komandaları dərs rəhbərinə çatdırırdı.

Baş leytenant Süleyman Ağayev rabitəçi əsgəri təqdim etdi. Sanki bayaqdan əsgərə yönəlmiş sual dolu baxışlarımı oxumuşdu.

- Əsgər rabitəçi olaraq üzərinə düşən vəzifəni layiqincə yerinə yetirir. İstər səyyar, istərsə də xətli rabitəni mükəmməl bilməklə yanaşı, verilən bütün komandaları vaxtında səlist qəbul edir, ötürür. Əsgər Raqif Həsənov həm də ötən il sentyabrın 19-da keçirilən antiterror əməliyyatının iştirakçısıdır. O zaman biz də əməliyyat tədbirlərinə cəlb olunmuşduq. Heyətlərimiz qarşıya qoyulan döyüş tapşırığını uğurla yerinə yetirdilər. Döyüşü idarə etmək deyəndə ilk olaraq rabitə yadımıza düşür. Həmin vaxt Raqif rabitəçi kursunu keçib yeni gəlmişdi. Onun son dərəcə bacarıqlı və çevik davranışları məndə əsgərə olan rəğbətimi oyatdı.

Həmsöhbətim əsgər Raqif Həsənovun həm də nümunəvi, intizamlı bir hərbçi olduğunu dedi. Əlavə etdi ki, bir ildən artıq xidmət etməsinə baxmayaraq, digər əsgər yoldaşlarına həmişə örnək olub.

Əsgər Raqif Nicat oğlu Həsənov Daşkəsən rayonunun Yuxarı Daşkəsən kəndindəndir. Orta təhsillidir. Hərbi xidmətə gələndə valideynlərinə söz verib ki, nümunəvi əsgər olacaq. Vətən qarşısındakı xidməti borcunu şərəflə, ləyaqətlə başa vuracaq.

Bəstəboy, qaraşın əsgər silahdaşlarından fərqlənmək istəmədiyini, onlarla həmişə bir sırada olmaqdan qürur duyduğunu dedi. İstər çöl təlimləri olsun, istərsə də kazarma daxilində həmişə silahdaşları ilə səmimi olub. Hərbi xidmətə yeni gələn əsgər yoldaşlarına da kömək əlini uzadıb.

- Biz Vətənin övladlarıyıq. Məqsədimiz, amalımız da birdir, - deyən Raqifin üzündən bir təbəssüm sezilirdi. Sinəsində tutduğu səyyar rabitə qurğusundan çağırış eşidildi. Əsgər üzürxahlıq edib kənara çəkildi və xəttin o başına çağırış edən silahdaşına ləngimədən cavab verdi...

Əsgər Raqif Həsənovun bir daha xidmətə necə məsuliyyətli olduğunu və əsgəri intizamını saxlamaqla komandirlərinin və silahdaşlarının rəğbətini qazandığının şahidi olduq.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası müdafiə nazirinin Macarıstana rəsmi səfəri







Macarıstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov iyunun 28-də bu ölkənin müdafiə naziri cənab Kristof Szalay-Bobrovnicski ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Budapeşt şəhərində yerləşən "Qəhrəmanlar meydanı" ziyarət edilib və ənənəyə uyğun olaraq əklil qoyulub.

Macarıstan Müdafiə Nazirliyinin binasında təşkil edilən rəsmi qarşılanma mərasimində müdafiə nazirləri fəxri qarovulun önündən keçiblər. Hərbi orkestrin müşayiəti ilə hər iki ölkənin dövlət himnləri səsləndirildikdən sonra fəxri qonaq kitabı imzalanıb.



Görüşdə Azərbaycan ilə Macarıstan arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdirildiyi qeyd edilib. Hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əlaqələrin genişləndirilməsi məqsədilə bu cür səfərlərin əhəmiyyəti vurğulanıb. Birgə hərbi əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Sonda media nümayəndələri üçün mətbuat konfransı keçirilib.

* * *

Macarıstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov bu ölkənin Milli Assambleyasının sədr müavini cənab Çaba Hende ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında münasibətlərin inkişafında ölkə rəhbərlərinin xüsusi rolu vurğulanaraq bütün sahələrdə olduğu kimi, hərbi sahədə də birgə əməkdaşlığın uğurla davam etdirildiyi qeyd olunub.

Tərəflər, həmçinin ölkələrimiz arasındakı ikitərəfli əməkdaşlığın perspektivləri barədə geniş fikir mübadiləsi aparıblar.



## Azərbaycanın müdafiə naziri Belarusa səfər edib

İyulun 2-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Belarus Respublikasına səfər edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, səfər çərçivəsində general-polkovnik Zakir Həsənov Minsk şəhərində keçiriləcək bu ölkənin alman-faşist işğalçılarından azad olunmasının 80-ci ildönümü və Müstəqillik Gününə həsr olunmuş hərbi paradda, həmçinin Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətlərinin Müdafiə Nazirləri Şurasının iclasında iştirakı planlaşdırılır.

Müdafiə nazirinin rəsmi səfəri iyulun 3-dək davam edəcək.

## Əməliyyat-taktiki fakültənin 2-ci kurs dinləyicilərinin buraxılış mərasimi keçirilib



Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunda Əməliyyat-taktiki fakültənin 2-ci kurs dinləyicilərinin buraxılışına həsr olunan mərasim keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü və ölkəmizin müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Milli Müdafiə Universitetinin rektoru kursu bitirən zabitləri müdafiə naziri general-polkovnik Zakir Həsənov və digər rəhbər heyət adından təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar və yeni müvəffəqiyyətlər arzulayıb, həmçinin kursu tədris edən professor-müəllim heyətinə öz təşəkkürünü bildirib.

Qeyd edilib ki, Azərbaycan Ordusunun peşəkar və dövrün tələblərinə uyğun zabit kadrlarının hazırlanması Ali Baş Komandanın ordu rəhbərliyi qarşısında qoyduğu prioritet məsələlərdən biridir. Hazırda hərbi təhsil sistemində aparılan islahatların, görülən işlərin ordumuzun döyüş qabiliyyətinin və intellektual potensialının yüksəldilməsi məqsədi daşıdığı xüsusi vurğulanıb.

Daha sonra kurs birincisi tərəfindən yaş kötüyünə simvol vurulub, məzunlara nişanlar və sertifikatlar təqdim olunub.

## Azərbaycan və Serbiyanın hərbi ekspertləri arasında görüş keçirilib

Azərbaycan və Serbiya Müdafiə nazirlikləri arasında ikitərəfli əməkdaşlıq planına əsasən, Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində "Quru Qoşunlarının döyüş hazırlığı və öyrənilmiş təcrübələr" mövzusu üzrə hər iki ölkənin hərbi ekspertlərinin görüşü keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, serbiyalı qonaqlara Azərbaycan Ordusunun Quru Qoşunlarında döyüş hazırlığının təşkili və digər fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib.

Görüşdə hər iki ölkənin Quru Qoşunlarının döyüş hazırlığı üzrə vəzifəli şəxsləri və mütəxəssisləri tərəfindən brifinqlər təqdim olunduqdan sonra geniş müzakirələr aparılıb, həmçinin qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.



## Xocalıda xeyli sayda döyüş sursatı aşkar edilib



Qarabağ bölgəsində ərazinin mühəndis kəşfiyyatının aparılması zamanı Ermənistan silahlı birləşmələri və qeyri-qanuni erməni silahlı dəstələrinə məxsus xeyli sayda döyüş sursatı ilə dolu yeşiklər və artilleriya mərmiləri aşkar edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində Xocalı rayonu ərazisində aşkar edilən sursat və mərmilər müsadirə edilib.

Azad edilən ərazilərdə minaların və partlamamış döyüş sursatlarının aşkar olunaraq zərərsizləşdirilməsi, eləcə də mühəndis təminatı üzrə digər zəruri tədbirlər davam etdirilir.



# Hərbi Tibb Fakültəsində feldşerlərin buraxılış mərasimi keçirilib



*Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində Hərbi feldşer işi ixtisası üzrə təhsil alan kursantların buraxılış mərasimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə Müdafiə Nazirliyinin nümayəndələri, Milli Müdafiə Universitetinin və fakültənin rəhbərliyi, professor-müəllim heyəti və kursantlar iştirak ediblər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Hərbi Tibb Fakültəsinin rəisi tibb xidməti polkovniki Çingiz Ələzov tədbiri açıq elan edərək gələn qonaqları salamlayıb. Fakültə rəisi Azərbaycan Ordusunda hərbi tibb sahəsində görülən işlərdən və yeniliklərdən söz açaraq gənc feldşerlərə xidmət edəcəkləri hərbi hissələrdə bu yenilikləri tətbiq etmələrinin vacibliyini vurğulayıb.

Sonra Milli Müdafiə Universitetinin rektoru polkovnik Gündüz Əbdülov mərasimdə çıxış edərək məzunları təbrik edib, onlara gələcək xidmətlərində müvəffəqiyyətlər arzulayıb. Rektor bildirib ki, Azərbaycan Ordusu üçün müasir tibb elminin tələblərinə cavab verən hərbi kadrların hazırlanması da ordumuzun səhiyyə sahəsində görülən işlərin bariz nümunəsidir.



Tibb İdarəsinin rəisi vəzifəsini icra edən tibb xidməti polkovnik-leytenantı Anar İsmayılov da məzunları təbrik edib, onlara Azərbaycanın gələcəyi, ordumuzun, dövlətçiliyimizin müdafiə qüdrətinin daha da artırılması naminə xidmətlərində uğurlar arzulayıb.

Rəsmi hissə başa çatdıqdan sonra fakültənin kursant heyətinin ifa etdiyi fakültə marşı və vətənpərvərliyi tərənnüm edən şeirlər tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Sonda yüksək intizamına və təhsildə fərqləndiyinə görə bir qrup hərbi qulluqçu fəxri fərman və qiymətli hədiyyələrlə təltif olunub.

# Sülh bəşəriyyətin rəmzidir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 44 günlük Vətən müharibəsinin başladığı günə qədər erməni silahlı birləşmələrinin işğalında olan torpaqlarımızın beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə, sülh yolu ilə azad edilməsi xəttini ölkənin xarici siyasətinin əsas prioritetlərindən biri olaraq bəyan etdi. Belə sülhsevər siyasətə rəğmən həm də hər il müdafiə xərclərinin artırılmasına, Azərbaycan Ordusunun müasir modern texnika ilə təchiz edilməsinə də xüsusi diqqət yetirdi. Ali Baş Komandanın rəhbərliyi altında bu gün Azərbaycan regionun aparıcı siyasi-iqtisadi nüfuz və güc sahibi olmaqla yanaşı, hərbi müstəvidə də söz sahibidir. Belə bir deyim var: "Ordun varsa, yurdun var". Qürur hissi ilə deyə bilərik ki, həm ordumuzun gücü, qüdrəti, həm də mənəvi-psixoloji hazırlığı sayəsində 30 ilə yaxın müddətdə erməni hərbi birləşmələrinin işğalında olan tarixi ərazilərimiz azad olundu. Respublikamızın suverenliyi, ərazi bütövlüyü tam təmin edildi. Azərbaycan dövləti Cənubi Qafqazda sülhün, sabitliyin təminatçısına çevrilib. Neçə onilliklər mənfur qonşularımızın torpaq, ərazi iddialarından əziyyət çəkən xalqımız tarixdə hər zaman sülhsevər xalq kimi tanınıb. Bu gün bəşəriyyətə, insanlığa ən müasir silahlarla qənim kəsilən qüvvələr var ki, yeni-yeni müharibə ocaqları yaratmaqda maraqlıdır. Dünyamızın bəzəyi, süd qoxulu körpələr, gələcəyimiz olan gənclərimiz dəhşətli, sonu görünməyən müharibələrin qurbanlarına çevrilirlər.



Neçə illər öncə bir xarici qadın jurnalistin müharibə haqqında xatirələrini oxumuşdum. Müxbir yazırdı: "Əfqanıstana ezam olunmuşdum. Bir qəsəbədə uçub dağılmış daxmanın qarşısında çomağına söykənib oturmuş qocaya yaxınlaşdım, oradan-buradan danışdıq. Soruşdum ki, müharibə sənin üçün nə deməkdir? Cavab verdi ki, sülh zamanı oğullar atalarını dəfn edir, müharibədə isə atalar oğullarını. Cavab məni qane etmədi, elə bu qədərmi? - dedim. Yaşlı adam çuxura düşmüş gözlərini mənə zillədi. Gözlərinin olduğunu o an fərq etdim. - Sənə daha nə lazımdı, - dedi. Müharibənin nə demək olduğunu o an anladım sanki. Çomağa söykənmiş son nəfəs kimiydi, çomaq azca tərpənsəydi, yıxılacaqdı qoca. Burada niyə oturmusan, - soruşdum. - Məndən başqa qətlə yetirilməmiş bir nəvəm, bir də inəyim qalıb. Nəvəmi inəyin dalınca göndərmişəm, tapıb gətirsə, sağıb südün içəcəyik, - dedi. "Sülh zamanı oğullar atalarını, müharibədə isə atalar oğullarını dəfn edir", bu ifadə müharibənin dəhşətli, faciəvi görüntüsünü göz önünə sərir.

44 günlük Vətən müharibəsi zamanı zərif çiyinlərində oğullarının, həyat yoldaşlarının tabutunu aparan neçə-neçə qadınlarımızı gördük. Analarımız Vətənimizin bütövlüyü naminə şəhidlik zirvəsinə yüksələn əziz övladlarını son mənzilə yola salırdılar. Budur, müharibənin acı mənzərəsi... Heç kim müharibə arzulamır, analar isə heç istəmir... Bəli, budur, müharibənin acı nəticələri. Biz hələ onun gətirdiyi fəlakətlərin bircə anını gözlərimiz önündə canlandırıb yaşaya bildik. Azadlıq, bərabərlik, ədalət adlandırdığımız dəyərlərdən ən çox arzu ediləni sülhdür. Maraqlısı odur ki, görəsən, bütün gözəllikləri, maddi və mənəvi dəyərləri ilə yaşadığımız dünyanın qədrini lazımi səviyyədə bilirikmi? Sabit şəraitdə yaşamalı olan bəşər övladı, çox təəssüflər ki, bəzən haqsızlığın, amansızlığın, terrorun və müharibələrin günahsız qurbanı olur. Bütün bunların qarşısının alınmasında sülhün rolu danılmazdır. Ən kiçik ailəvi, məhəlli regional münaqişələrdən tutmuş yüzillik müharibələrədək hər hansı qarşıdurmanın sonluğu yalnız sülhlə bitib. Sülh qalib gəlib. Buna görə də sülh bütün vasitələrin fövqündə dayanan ən güclü amildir. Təbii ki, sülhə nail olmaq tərəflərin həqiqətləri doğru, düzgün qiymətləndirməsi deməkdir.

Sülh dinclik, əmin-amanlıq, qurub-yaratmaq, hər sahədə inkişaf, bir sözlə, bəşəriyyətin var olması deməkdir. Dünyada sülhün carçıları gələcəyimiz olan uşaqlardır. Uşaqlar hər zaman açıq səma altında azad, dinc, əmin-amanlıq şəraitində, atalı-analı yaşamaq arzusunda olublar. Sülh rəmzi olan göyərçinlərin uşaqlar tərəfindən sevilməsi də elə buradan irəli gəlir. Lakin zaman-zaman dünyamıza dinclik arzulasaq da, hələ də münaqişələr davam etməkdə, torpaqlar qan çanağında boğulmaqda, hər gün dinc insanlar, günahsız körpələr odsaçan silahların qurbanlarına çevrilməkdədirlər.

Sülh bəşəri rəmzə çevrilərək, insanların arzuladığı və can atdığı bütün müsbət keyfiyyətləri özündə birləşdirən fundamental yeganə məfhumdur. BMT Baş katibinin dünya xalqlarına müraciəti olur. İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin qəbul edilməsinin 60-cı ildönümü münasibətilə BMT-nin Baş katibi Pan Gi Munun müraciətində qeyd olunduğu kimi, hələ də dünyada bir çox insanların hüquqları xüsusilə silahlı münaqişələr zamanı və ateşkəs dövründə pozulmaqda davam edir: "Məhz buna görə də biz çalışmalıyıq ki, bəyannamədə qeyd olunan hüquqlar günümüzün reallığına çevrilsin".

Danılmaz faktdır ki, sülh dünyada ehtiyac duyulan ən qiymətli vasitə olmaqla yanaşı, həm də BMT-nin ali vəzifəsidir. Adı çəkilən bəyannamədə qeyd olunur: "O, danışıqlarımızın aparıcı qüvvəsidir. O, həm də sülhməramlı fəaliyyət və preventiv diplomatiyadan tutmuş insan haqları və inkişafın gücləndirilməsinə qədər dünyanın hər yerində gördüyümüz bütün işləri birləşdirən bir məhfumdur".

44 günlük Vətən müharibəsində, döyüş əməliyyatlarında və antiterror əməliyyatında Ermənistan silahlı birləşmələrinin və qeyri-qanuni silahlı dəstələrinin darmadağın edilməsindən sonra yaranan günümüzün əsas reallığı sülh sazişinin imzalanması olsa da, aparılan sülh danışıqlarının səmərə verməməsi regionda təhlükəsizliyin təminatına əngəl yaratmaqdadır.

Dünyanın bütün sülsevər xalqları kimi, Azərbaycan xalqı da tarix boyu sülhün, əmin-amanlığın, dinc şəraitdə və yanaşı yaşamağın tərəfdarı olub. Əsrlərdir ölkəmizdə yaşayan digər xalqların nümayəndələri ilə tarix boyu birgə yaşayış təmin olunub, multikultural dəyərlər qorunub saxlanılıb. Lakin mənfur qonşularımız olan ermənilər illərlə torpaqlarımıza qarşı iddia qaldıraraq bu sakitliyi pozdu. Sonda xalqımız Haqq işi uğrunda mübarizəyə qalxaraq Böyük Zəfər qazandı.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

## "The Defense Post": Azərbaycan "C-27J Spartan" hərbi-nəqliyyat təyyarəsi alıb

*Xarici media Azərbaycanın İtaliyanın "Leonardo" şirkətinin istehsalı olan "C-27J Spartan" hərbi-nəqliyyat təyyarəsi alması barədə materiallar dərc ediblər.*

AZƏRTAC xəbər verir ki, Rusiyanın "AviaPort" profilli informasiya agentliyinin və ABŞ-ın "The Defense Post" nəşrinin materiallarında bildirilir ki, təyyarə Heydər Əliyev Beynəlxalq Hava Limanında Azərbaycan Prezidenti İlham Əliyevə təqdim edilib.

Materiallarda qeyd olunur ki, dövlət başçısına təyyarənin taktiki-texniki xüsusiyyətləri, əməliyyat və digər göstəriciləri barədə məlumat verilib.

"AviaPort" agentliyi Prezident Administrasiyasının məlumatına istinadla yazır: "Çətin coğrafi və əməliyyat şəraitində həm müdafiə, həm də mülki tapşırıqları yerinə yetirməyə qadir olan təyyarə hərbi daşımalar, paraşütçülərin və yüklərin havadan buraxılması, həmçinin tibbi missiyalar üçün istifadə olunacaq".

"The Defence Post" nəşri "C-27J Spartan" təyyarəsinin Azərbaycanda hərbi-nəqliyyat əməliyyatlarında və tibbi missiyalarda istifadə olunacağı barədə məlumat verməklə yanaşı, oxucuları təyyarənin xüsusiyyətləri ilə də tanış edir. Məqalədə qeyd olunur ki, onun maksimal faydalı yük əmsalı 11500 kiloqram, ən uzaq uçuş məsafəsi isə 1760 kilometrdir. Təyyarənin güc qurğusu iki "Rolls-Royce" turbovintli mühərrikdən ibarətdir.

Materialların tam mətni ilə göstərilən media orqanlarının saytlarında tanış olmaq mümkündür.

# Hərbi institutda hərbi vətənpərvərlik tədbiri keçirilib



*Heydər Əliyev adına Hərbi İnstitutda Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanası (MEK) və Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "Kitabın gənclərin hərbi vətənpərvərlik tərbiyəsinə təsiri" mövzusunda tədbir keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə Hərbi institutun rəhbər, zabit, müəllim, kursant heyəti, AMEA MEK-nın nümayəndələri, Zəngəzur Cəmiyyətlər Birliyinin sədri və başqa qonaqlar iştirak ediblər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər mövzu ətrafında geniş danışaraq gənclərin hərbi vətənpərvərlik tərbiyəsində, əsl vətəndaş kimi yetişməsində, o cümlədən onların maariflƏndirilməsində kitabın böyük rola malik olmasından bəhs ediblər. Gənc nəsildə kitaba marağın artırılmasının vacibliyini vurğulayıblar.

Heydər Əliyev adına Hərbi İnstitutun rektoru vəzifəsini icra edən Vətən Müharibəsi Qəhrəmanı polkovnik Nizami Mövlanov tədbir iştirakçılarına minnətdarlığını ifadə edib. Belə tədbirlərin daimi olaraq keçirilməsinin zəruriliyini diqqətə çatdırıb.



Sonda AMEA MEK-nın nümayəndələri tərəfindən institutun kitabxanasına 30 ədəd kitab hədiyyə edilib.

# Rusiya Xəzər flotiliyasının hərbi gəmiləri Bakı limanını tərk ediblər







Azərbaycanda qeyri-rəsmi dostluq səfərində olan Rusiya Federasiyası Hərbi Dəniz Donanmasının Xəzər flotiliyasının "Volqodonsk" kiçik artilleriya və "Anatoli Qujvin" hidroqrafiya hərbi gəmiləri iyunun 30-da Bakı limanını tərk ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, səfər çərçivəsində gəmi heyətləri üçün mədəni və tarixi abidələrlə tanışlıq məqsədilə Bakı şəhərində gəzinti təşkil edilib.

Eyni zamanda, Azərbaycan və Rusiya hərbi dənizçiləri arasında futbol və voleybol üzrə yoldaşlıq görüşləri keçirilib. Hərbi dənizçilərimizin qələbəsi ilə başa çatan hər iki görüşün sonunda komandalara kubok və medallar təqdim edilib.

## Medallı igidlərimiz

# Azərbaycançılıq qüruru

Yeniyetmənin marağı həvəsə dönür, həvəsi istəyə, istəyi arzuya, niyyətə. Yaşanılacaq illərə ömrün mənzilini niyyət müəyyənləşdirir. Bu səbəbdən niyyətə - arzuya dönməzlik işığı da deyirlər; ömür dönməzlik işığında yaşanılan illərdir. Bunları Elvin də bilirdi. Onu Biləsuvardan Cəmşid Naxçıvanski adına Hərbi Liseyə bu dərk gətirmişdi, bu dərklə təhsil alırdı. Marağı burada istəyə dönmüşdü, istəyi - niyyətə. Burada anladı ki, hərbçi olmaq vətənləşməkdi...

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsil alanda hərbçi olmağın qürurunun işığını da gördü - oxudu, öyrəndi, bildikləri çöl təlimlərində təkmilləşdi. Zabit olacaqdı. 2006-cı il idi...

"Torpaqlarımızın işğaldan azad olunması üçün Ali Baş Komandan əmr versəydi, kursant kimi döyüşəcəyik. Hərbi And içəcəyik, zabit kimi qoşunlarda hərbi xidmətə başlayacağıq, yəni, zabit kimi döyüşəcəyik..." - sevincini kursant yoldaşlarıyla söhbətlərində belə ifadə edirdi. O da əmin idi ki, sülh danışıqları baş tutmasa, Azərbaycan ədalətli müharibəyə başlayacaq...

2006-cı ildə zabit kimi hərbi xidmətə başladı. Niyyəti gerçəkləşmişdi - zabit idi, niyyəti



gerçəkləşəcəkdi - Ali Baş Komandanın döyüş əmri ilə işğaldan qurtuluş döyüşlərinin iştirakçısı olacaqdı...

... İkinci Qarabağ müharibəsi başladı. Zabit Elvin Bayramovun xidmət etdiyi hərbi hissə də döyüşlərə cəlb olunmuşdu. Böyük Bəhmənlidəydilər. Döyüşlərdə iştirak edən bütün bölmələri döyüş sursatı ilə, ərzaqla, yanacaqla vaxtında təmin etmək - onların döyüş tapşırığı belə idi. Bir döyüş dəsti qurtarmamış yeni dəst göndərilirdi. Göndərilənlər atəş altında çatdırılırdı. Ona görə döyüş şəraiti, əsas və alternativ yollardan istifadə imkanları, istifadə vaxtları, maşınların necə göndərilməsi və s. ciddi nəzərə alınırdı. Bilirdilər ki, döyüşən bölmələrin qələbəsi həm də döyüş sursatlarının dəqiqliklə, məsuliyyətlə çatdırılmasından asılıdır. Komanda məntəqəsindən verilən bütün əmrlər itkisiz, təhlükəsiz yerinə yetirilirdi...

Füzuli rayonunun Bobi kəndi yaxınlığındaydılar. Qarşıda ciddi döyüş gedirdi. Sövq-təbii hiss etdilər ki, döyüşçülərimizin sursatı azdır. Onda zabit Elvin Bayramov kəşfiyyatçılarla döyüş zonasına xeyli yaxınlaşdı. Atışın tempindən gümanında yanılmadığını qət etdi. Və sonra döyüşçülərimizə gərəkli miqdarda sursat çatdırıldı. "Bobi kəndi işğaldan azad edilləndə Vətən müharibəsində yaşadığım ən gözəl sevinclərdən birini yaşadım. Şükranlıqla Biləsuvara sarı baxdım, xəyalən mənim hərbçi olmağımı məsləhət görən atamı bağrıma basdım. Yanlarında olsaydım, Bobini işğaldan azad edənləri belə əzizləyərdim...", - Elvin Bayramov belə dedi.

Polkovnik-leytenant Elvin Bayramov da, hərbi hissənin şəxsi heyəti də noyabrın 2-də "Ohanyan səddi" yaxınlığında qələbə ərəfəsində olduqlarını duyublar. Artilleriyaçılar məsafədən döyüşsə də, ruhən döyüşçülərin içində olur. Onlar da döyüş-döyüş qələbəyə yaxınlaşırdılar. Sığnaq kəndindən atdıqları mərmiləri qələbə mərmiləri bilirdilər...

Şuşa işğaldan azad olundu...

Vətən müharibəsi başa çatdı. Azərbaycan Üçtərəfli Bəyanatı qalib dövlət kimi, Ermənistan məğlub dövlət kimi imzaladı...

Polkovnik-leytenant Elvin Bayramov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilib...

"Azərbaycanımızın ərazi bütövlüyü tam bərpa olundu. Hamımızın niyyəti bu idi, niyyətimizə çatdıq, xalqı niyyətinə ordumuz çatdırdı..." - polkovnik-leytenant Elvin Bayramovun qüruru azərbaycançılıq qürurudu...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

## ANAMA: Ötən ay ərzində 5675 hektardan çox ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə iyun ayında icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 278, tank əleyhinə 271 mina və 1695 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən ay ərzində 5675,5 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

*Milli Qəhrəmanlarımız*

# Hər könüldə yerin var...

Azərbaycanın Milli Qəhrəmanı Vəzir Surxay oğlu Orucov təkcə Tərtər rayonunda deyil, ölkəmizin hər yerində cəsarətli, mərd, qorxmaz, igid bir döyüşçü kimi tanınmışdır. Onun əvəzsiz xidmətləri haqqında müxtəlif qəzetlərdə, kitablarda yazılar çap olunmuşdur. Bütün bunlar barədə Tərtər rayonunun Habil Məmmədov adına Xoruzlu kənd orta məktəbində Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin və Qarabağ Regional Təhsil İdarəsinin Tərtər rayon Təhsil sektorunun birgə təşkilatçılığı ilə keçirilən anım mərasimində ətraflı danışıldı.



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Dövlət Himni səsləndirildi.

Mərasimdə Azərbaycanın Milli Qəhrəmanı Vəzir Orucovun vətənpərvərliyindən, döyüşlərdə göstərdiyi şücaətlərdən ətraflı söz açıldı. Onun həyatı, döyüş yolu haqqında ətraflı məlumat verildi. Bildirildi ki, Orucov Vəzir Surxay oğlu 26 dekabr 1956-cı ildə Tərtər rayonunun Xoruzlu kəndində anadan olub. Onun ailəsinin taleyinə də qaçqınlıq, köçkünlük düşüb. 1950-ci ildə ailəsi Ermənistan ərazisində ata-baba yurdundan didərgin düşərək Tərtər rayonuna pənah gətirib və burada məskunlaşıb. Vəzir kənddəki məktəbdə təhsil alıb. Uşaqlıq və yeniyetməlik vaxtlarında el-obanın rəğbətini qazanıb. Sonra təhsilini Bakı Yüngül Sənaye Texnikumunda davam etdirib. 1975-1977-ci illərdə keçmiş sovet ordusu sıralarında xidmət edib. Xidmət müddətində də əsgər kimi ona göstərilən etimadı həmişə doğruldub. Hərbi xidmət illərində komandirlərindən aldığı təşəkkür məktubları və fəxri fəmanlar əsgər həyatından qalan yadigarlardır.

Vəzir Orucov əsgəri xidmətdən sonra Rusiyanın Arxangelski vilayətində ali təhsil alıb işləmək istəyirdi. Ancaq işlər onun gözlədiyi kimi olmadı. Ölkəmizə qarşı başlanan təhdidlər onu da ciddi narahat edirdi. Çətin və ağır günlərdə Vətəndən ayrı düşmək olmaz deyərək, Vətəninə qayıtdı. 1992-ci ilin fevralında baş verən Xocalı faciəsi onu daha çox hiddətləndirdi və düşmənə qarşı mübarizəyə başlamaq qərarına gəldi. Könüllü olaraq Tərtər özünmüdafiə taboruna yazıldı. Qısa müddətdə silahdaşları ilə birgə Vətənin müdafiəsi uğrunda döyüşlərə qətiyyətlə hazırlaşdılar. Ağdərə rayonunun Həsənqaya, Göyarx, Madagiz, Çıldıran və digər kəndləri, həmçinin Sərsəng su anbarı uğrunda gedən döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvə və texnikasını məhv etdilər. Düşmən hücumları isə ara vermirdi. 1 sentyabr 1992-ci ildə düşmən tankını vurmaq istəyərkən Vəzir ağır yaralanır və arxa cəbhəyə təxliyə olunur. Müalicə olunduqdan sonra cəbhəyə qayıdır və silahdaşları ilə birlikdə yenidən döyüşlərə qatılır. 1993-cü il martın 22-də Ağdərənin "Qlobus" yüksəkliyi uğrunda gedən döyüşlərdə Vəzir Orucov qəhrəmancasına şəhid olur. O, Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn olunur. 27 mart 1994-cü ildə ölümündən sonra ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilir. Milli Qəhrəman Vəzir Orucov xalqımızın tarixinə adı əbədi həkk olunan və tanınan igid qəhrəmanlardan biridir. Onun xatirəsini xalqımız həmişə uca tutur.

Milli Qəhrəmanın adını daşıyan məktəbin direktoru Elşən Səfərov çıxışında bildirdi ki, xalqımızın tarixində Vətəninə, xalqına sıx bağlı olan yüzlərlə, minlərlə qəhrəmanlar olub. İstər Birinci Qarabağ müharibəsində, istərsə də Vətən müharibəsində onların yüzlərlə, minlərlə davamçısının yetişdiyinin bir daha şahidi olduq. Vətənin ağır və çətin günlərində soydaşlarımız Vətən hüdudlarından kənarda olsalar da, doğma el-obalarına qayıdaraq torpaqlarımızı müdafiə etmək üçün döyüşənlərin sıralarına qoşulublar. Vəzir Orucov da belə mərd oğullardan biri olub. O, Vətəndən uzaqlarda olsa da, geri qayıdaraq doğma yurdun müdafiəsinə qalxıb. Qısa müddət ərzində əsl qəhrəman kimi düşmənə qarşı döyüşlərdə yüksək vətənpərvərlik nümunəsi göstərib. Qarşıya qoyulan




döyüş tapşırıqlarını silahdaşları ilə birgə həmişə yerinə yetirərək düşmənləri torpaqlarımızdan qovmağa çalışıb. O, həm də bacarıqlı kəşfiyyatçı komandir kimi də nüfuz qazanmışdır. Vətənimizin, xalqımızın tarixinə onun adı qəhrəman kimi yazılıb. Onun həyatı, keçdiyi döyüş yolu və vətənpərvərliyi hər bir azərbaycanlı gənc üçün əsl örnəkdir, nümunədir.

Vətən müharibəsi iştirakçısı Yaşar Hüseynov müstəqilliyin ilk illərinə nəzər salaraq, Vətənimiz, müstəqilliyimiz, dövlətçiliyimiz üçün yaranan ağır günləri xatırlatdı. Bildirdi ki, Ulu Öndər Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə qayıdışı dövlətçiliyimizin tarixində yeni dövrün başlanğıcı oldu. O, xalqımızın xilaskarına çevrildi. Ölkə həyatının bütün sahələrində sabitliyə, iqtisadi-siyasi hərbi sahələrdə yüksəlişə, tərəqqiyə nail oldu. Azərbaycan Ordusunu yenidən qurdu. Ölkəmizi dünya miqyasında tanıtdı. Böyük dövlətlərlə iqtisadi əlaqələr yaratdı. Ölkəmiz inkişaf etməyə başladı. Xalqımızın həyatında əsaslı dönüş yarandı. Məhz Ulu Öndərin misilsiz xidmətlərinin bəhrəsidir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün də böyük uğurlara imza atılır. Otuz ilə yaxın davam edən işğala son qoyuldu. Ulu Öndərin siyasi kursunun davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində Azərbaycan dünyada qalib ölkə kimi tanındı. Ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam bərpa olundu. Bizə bu günləri bəxş edən Milli Qəhrəmanların, şəhidlərin xatirəsini həmişə böyük ehtiramla yad edirik. Bir vətəndaş kimi qürur hissi keçiririk ki, qalib bir xalqın övladlarıyıq.



Sonra tədbir iştirakçıları "Əsgərə məktub" layihəsi çərçivəsində rəşadətli ordumuzun əsgərlərinə məktublar ünvanladılar. "Əsgərin bir günü" adlı videoçarx nümayiş olundu, əsgərlərdən gələn məktublar səsləndirildi. Milli Qəhrəmana həsr olunan ədəbi-bədii kompozisiya rəğbətlə qarşılandı.

Sonda şəhidlər guşəsinin önünə tədbir iştirakçıları tərəfindən gül dəstələri düzüldü.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Vətənpərvərlik nümunəsi: qəhrəman Dilqəm Nağıyevin həyat hekayəsi

Torpaqlarımızın müdafiəsi və işğaldan azad olunması uğrunda cəsarətlə və inamla döyüşən Vətən oğullarımız uzun illər boyu tez-tez xatırlanır və gələcək nəsillər üçün örnək olurlar. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra erməni təcavüzü və terrorizminə qarşı xalqımız səfərbər oldu, Vətən və millət naminə düşmənə qarşı ölüm-dirim mübarizəsinə qalxdı. İgidlərimizin bu yolda göstərdikləri qəhrəmanlıq xalqımızın qəlbində əbədi bir məşəl kimi yanaraq gələcək nəsillərə yol göstərir.



Ölkəmizin suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın erməni işğalından azad edilməsi uğrunda döyüşlərdə adını şanlı qəhrəmanlıq tarixinə yazan Azərbaycanın Milli Qəhrəmanı Dilqəm Heydər oğlu Nağıyevin də igidlikləri xalqımızın yaddaşında əbədi qalacaq.

Dilqəm Nağıyev 24 iyun 1975-ci ildə Mingəçevir şəhərində anadan olub. 1990-cı ildə 9 saylı Mingəçevir şəhər orta məktəbinin 8-ci sinfini bitirdikdən sonra 69 saylı texniki-peşə məktəbində təhsil alaraq, elektrik çilingəri peşəsini öyrənib. 1993-cü il avqustun 7-də ordu sıralarına çağırılan Dilqəm Vətənin müdafiəsinə yollanıb. Bakıdakı hərbi hissələrin birində təlim keçdikdən sonra Gəncə şəhərinə, oradan isə Füzuliyə döyüş bölgəsinə göndərilib. Dilqəmin ilk döyüş yolu da burada başlayıb. O, Əhmədbəyli, Mahmudlu, Bala Bəhmənli, Böyük Bəhmənli, Kürdmahmudlu kəndlərinin müdafiəsində böyük qəhrəmanlıqlar göstərib. Komandirləri Dilqəmin döyüş qabiliyyətini yüksək qiymətləndirib, qısa müddətdə ona çavuş rütbəsi verdilər. O, daim öz üzərində çalışır, silahlardan istifadə etmək qaydalarını öyrənirdi ki, bu da onun döyüşlərdə uğur qazanmasına kömək edirdi. Dilqəm üçün Azərbaycanın hər bir ərazisi doğma və əziz idi. Silahdaşlarını dözümlü və cəsur olmağa ruhlandırırdı. Onun qanında və varlığında düşmənə qarşı nifrət və qəzəb vardı.

Azərbaycan müstəqillik əldə etdikdən sonra bir neçə dəfə xarici və daxili düşmənlərin dövlət çevrilişi cəhdləri ilə üzləşib. 1995-ci ilin mart hadisəsi də dövlətçiliyimizə qarşı yönəlmiş bir sui-qəsd idi. Erməni qəsbkarlarının törətdiyi fəlakətlərdən başı ayılmayan Azərbaycan təhlükəli anlar yaşayırdı. Xalq həyəcan içində idi. Silahlı Qüvvələrimiz dövlət çevrilişinin qarşısını qətiyyətlə aldı. Həmin gün Dilqəm də vətəndaşlıq borcunu yerinə yetirirdi.

1994-cü ilin oktyabrında dövlət çevrilişinə cəhd zamanı Dilqəmin xidmətləri böyük olub. 15 mart 1995-ci ildə ikinci dəfə dövlət çevrilişinə cəhd edilərkən, Tovuz-Ağstafa zonasında qiyamçıların ram edilməsi əməliyyatında şücaət göstərən Dilqəm Nağıyev qarşı tərəfdən açılan atəş nəticəsində şəhid olub. Dilqəm Mingəçevir şəhərinin Şəhidlər xiyabanında dəfn edilib.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli fərmanı ilə Nağıyev Dilqəm Heydər oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib. Qeyd edək ki, 9 saylı Mingəçevir şəhər orta məktəbi onun adını daşıyır.

Dilqəm Nağıyevin qəhrəmanlıq hekayəsi yalnız bir insanın igidliyindən bəhs etmir, bu, eyni zamanda, bütün Azərbaycan xalqının mübarizə ruhunun, azadlıq arzusunun və Vətən sevgisinin parlaq nümunəsidir. Dilqəm adını şanlı tariximizə qızıl hərflərlə yazdıraraq, gələcək nəsillər üçün əsl qəhrəmanlıq simvoluna çevrilib. Onun həyat yoluna baxdıqda görürük ki, o, Vətəninə olan sevgisini yalnız sözlərlə deyil, ən çətin anlarda göstərdiyi igidliklərlə də təsdiqləyib. Düşmən qarşısından geri çəkilmədi, torpaqlarımızı müdafiə edərkən canını fəda etdi və bununla da əsl qəhrəmanlıq dərsi verdi. Bu gün Dilqəmin məzarını ziyarət edənlər onun döyüş meydanında göstərdiyi şücaətini, silahdaşlarına olan sədaqətini və Vətəninə olan böyük sevgisini xatırlayır.

Azərbaycanın hər bir guşəsində Dilqəm kimi qəhrəmanların xatirəsi yaşayır. Onun göstərdiyi igidlik və şücaət gələcək nəsillər üçün bir məşəl kimi parlayır, onları Vətən sevgisi ilə dolu olan bir yolda addımlamağa ruhlandırır. Bu qəhrəmanlıq dastanı, Dilqəmin adı ilə bağlı olan hər bir hekayə, Azərbaycanın parlaq gələcəyinə inamı daha da möhkəmləndirir. Gələcək nəsillər Dilqəmin həyat hekayəsini oxuyaraq, onun qəhrəmanlığından və vətənpərvərliyindən örnək alacaqlar.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

*Tarix yazan oğullar*

# “Oğlumla bundan sonra da qürur duyacağam!”

Vətən müharibəsindən bir neçə il keçməsinə baxmayaraq, qazanılan şanlı qələbəni hər bir azərbaycanlı qürurla xatırlayır. Döyüşlərin başladığı tarixdən 44 günlük Vətən müharibəsinin hər bir günü istər sevinciylə, istərsə də kədəriylə hər kəsin xatirində dərin izlər buraxdı. Hər ötən gün ordumuzu qələbəyə daha da yaxınlaşdırdı. Qəhrəman oğullarımız illərdir gözlənilən əmrin icrasını qısa zaman kəsiyində uğurla yerinə yetirdilər. Torpaqlarımız kənd-kənd, rayon-rayon işğaldan azad edildi. Bu zəfər ordu ilə xalq birliyinin vəhdətindən doğan zəfər oldu. Döyüşlər ordumuzun gücünə güc qatdı, xalqımızın ordunun qüdrətinə inamını daha da artırdı. Sübut olundu ki, Azərbaycan Ordusu qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən gələcək gücə sahibdir. Ancaq, təəssüf ki, qələbələr itkisiz olmur. Bu haqq savaşında canını fəda edən, şəhidlik zirvəsinə ucalan oğullarımız da oldu. Belə qəhrəman oğullardan biri də müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Amin Qurban oğlu Rzayevdir.




Şəhidimiz haqqında məlumat hazırlamaq və onun ruhunu yad etmək üçün doğulub boya-başa çatdığı Gədəbəy rayonunun Çobankənd kəndinə yollandıq. Şəhidin yaşadığı evin yaxınlığında xatirəsini əbədiləşdirmək məqsədilə ucaldılan bulaqdan su içib, həyətə daxil olduq. Şəhidin atası Qurban kişi ilə də elə burada görüşdük. Şəhidimiz haqqında bəzi məlumatlar öyrənmək istədiyimi deyəndə evə dəvət etdi. Mərd, mehriban, qayğıkeş bir insan olduğunu elə ilk unsiyyət zamanı gördüm.

Mənzilə daxil olduqda otaqlardan birində şəhid Rzayevə həsr olunan guşə var idi. Burada şəhidin şəxsi əşyaları, şəkilləri, xidmət dövründə müxtəlif vaxtlarda aldığı fəxri fərmanları, təşəkkürnamələri, Vətən müharibəsində layiq görüldüyü medalları və şanlı Azərbaycan bayrağı ilə örtülmüş yatağı saxlanılırdı. Atası Qurban Rzayev dedi ki, Amin vətənpərvər, xalqını, dövlətini sevən gənclərdən olub. O, hələ uşaq yaşlarından düşmənin Gədəbəy rayonu istiqamətində atəşkəsi pozmasının şahidi olurdu. Elə o vaxtdan böyüyəndə hərbçi olacağını və düşmənin atəş səslərini kəsəcəyini deyirdi.

Amin Rzayev Birinci Qarabağ müharibəsi şəhidi Firdovsi Əliyevin adını daşıyan Çobankənd tam orta məktəbdə təhsilini bitirdikdən sonra hərbi xidmətə yollanıb. Müddətli həqiqi hərbi xidmətini bitirdikdən sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olmaq üçün müvafiq qaydada müraciət edib. Fiziki hazırlıqlı olan Amin imtahanlardan uğurla keçərək qumbaraatan komandiri kimi hərbi hissələrin birində xidmətini davam etdirib. Xidmət etdiyi hərbi hissə döyüş əməliyyatlarında fəal iştirak edib. Amin də döyüşənlərin sırasında olub. Döyüş yoluna Talışkənddən başlayan şəhidimiz düşmənə aman verməyib. Təəssüflər olsun ki, ömür yolu qısa yazılan Amin ağır döyüşlərin birində şəhid olub. Vətən müharibəsi zamanı şəhid olan oğlunu oktyabrın 2-də dəfn edən Qurban kişi "Vətən sağ olsun!" deyərək digər övladını oktyabrın 11-də hərbi xidmətə yola salıb. Qurban Rzayev özü də həmin günlərdə könüllü olaraq döyüşlərə qatılmaq üçün müraciət edib, ancaq ordumuzun yetəri qədər komplektləşdiyini və ona ehtiyac olmadığını cavabını alıb.

"Vətəni göz bəbəyi kimi sevmək, qoynunda boya-başa çatdığın torpağın müqəddəsliyini hiss edib yolunda canından keçməyə hazır olmaq ən müqəddəs duyğudur. Vətənimizin müdafiəsi uğrunda canından keçərək şəhidlik zirvəsinə ucalmaq isə ən böyük şərəfdir. Müqəddəs amal uğrunda şəhid olan igidlərimiz xalqın qəhrəmanlıq salnaməsinə adlarını qızıl hərflərlə yazdılar. Mənim övladım da bu uca zirvəyə yüksələnlərdəndir. Bir valideyn üçün övlad itkisi ağır dərd olsa da, oğlumla hər zaman qürur duymuşam, duyacağam da", - Qurban kişi dedi.

Amin kimi oğullarımızın şücaəti nəticəsində cəmi 44 gün ərzində 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu. Əlbəttə, bu tarixi qələbəni bizlərə yaşadan şəhidlərimizi, döyüşdə yaralanan silahdaşlarımızı heç bir zaman unutmamalı və unutdurmamalıyıq. Şəhidlərimizin xatirələrini əziz tutmaq, onların adlarını əbədiləşdirmək hər bir azərbaycanlının ən müqəddəs vəzifəsi və vətəndaşlıq borcudur. Vətənə şəhid verən ailədən həm ürək ağrısıyla, həm də qürurla ayrıldıq. Ürəyimizi ağrıdan Aminin vaxtsız ölümü, qürur verən isə Vətən torpağının müdafiəsini müqəddəs amal bilən gənclərimizi yetişdirən Qurban kişi kimi valideynlərin olmasıdır.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# Azərbaycan Ordusunun zabiti olmaq fəxrdir

2020-ci il sentyabrın 27-də Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin döyüş əmri ilə Azərbaycan Ordusu bütün cəbhə boyu əkshücum əməliyyatına başladı. Şanlı ordumuzun hərbi qulluqçuları düşmənin üzərinə atıldı, torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına vuruşdular. Bu gün ordu sıralarında minlərlə gənc zabit, gizir kadrları xidmət edir. Hər biri öz peşəsinə məsuliyyətlə yanaşır. Öz fiziki, sıra, döyüş hazırlıqlarını yüksək saxlamaq üçün daim inkişaf edirlər. Bunu, həmçinin tabeçilikdəki şəxsi heyətə də aşılayırlar. "N" hərbi hissəsində belə bir gənc zabitlə tanış olduq. Leytenant Şirin Əzizlinin xidmət etdiyi hərbi hissədə nümunəvi bir zabit olduğunu öyrəndik.

O, 1994-cü il mayın 3-də Qəbələ rayonunda anadan olub. Əsgəri xidmətini başa vurduqdan sonra zabit olmaq arzusunun arxasıyca gedərək, "Ehtiyat zabit hazırlığı" kursunu başa vurub və 2022-ci ildə artıq gənc zabit kimi xidmətə yollanıb.

"Hələ uşaq olanda arzulayırdım ki, böyüyüb Vətən müdafiəçisi olum. Düzgün peşəni seçdiyimdən əminəm. "Ehtiyat zabit hazırlığı" kurslarında təhsil aldığım müddətdə dərslərimdə fəal iştirak edir, səylə çalışırdım. Çalışqanlığımı və məsuliyyətimi artıraraq, ümumi hərbi biliklərimi təkmilləşdirdim".



Hal-hazırda artilleriya hərbi hissəsində xidmətini uğurla davam etdirən zabit Şirin Əzizli Vətən müharibəsindən də söz açdı. "44 günlük Vətən müharibəsi bizə sonsuz sevinc və xoşbəxtlik bəxş etməklə yanaşı, həm də bu hissləri xalqımıza yaşatmağın qürurunu keçirtmək imkanı yaratdı. Uzun illər sonra Qarabağ torpağına igid ayağı basıldı. Bütün dünya azərbaycanlıları üçün bundan gözəl, xoş heç nə ola bilməzdi. Mən də Azərbaycan vətəndaşı kimi çox sevinir, hərbi qulluqçu kimi qürurlanıram. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli ordumuz düşməni əzəli torpaqlarımızdan qovdu. Dünya hərb tarixinə yeni səhifə yazan Azərbaycan Ordusunun sıralarında olmaq hər birimiz üçün böyük fəxrdir", - deyərək zabit sözünü bitirdi.

Gənc zabitlə tanışlıq bizdə də xoş təəssüratlar yaratdı. Vətənin keşiyində durmaq hər bir Azərbaycan vətəndaşının borcudur. Leytenant Şirin Əzizli bunu tək borc kimi deyil, həm də Vətəninə və millətinə sevgisinin bariz nümunəsi kimi qəbul edir. Doğrudan da, şanlı ordumuzun sıralarında olan hər bir hərbi qulluqçu canı bahasına da olsa, ölkəmizin müdafiəsində dayanmağa hazırdır. Əminliklə demək olar ki, düşmən bir daha Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünə göz diksə, Şirin kimi oğullar Ali Baş Komandanın döyüş əmri ilə düşmən üzərində yeni zəfərlər qazanacaq.

**Baş leytenant**
**Elvin VƏTƏNDUST**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Media: ABŞ NATO-nun Polşadakı bazasına “Abrams” tanklarını və digər hərbi texnikanı köçürüb



ABŞ ordusu Polşadakı NATO bazasına "Abrams" tanklarını və digər hərbi texnikanı köçürüb.

Bu barədə ABŞ Müdafiə Nazirliyinin "Stars and Stripes" qəzeti məlumat yayıb.

Məlumata görə, bazaya 14 "M1 Abrams" tankı və M88 zirehli maşını göndərilib.

Həmçinin bildirilib ki, bazaya 85-dək tank, 190 ədəd döyüş zirehli texnikası, o cümlədən "M2 Bradley" piyada döyüş maşınları, həmçinin 35 ədəd artilleriya silahı, o cümlədən "M109 Paladin" haubitsaları göndərilməsi planlaşdırılır.

## Stoltenberq: Çin NATO-nun maraqlarına meydan oxuyur



NATO Çini rəqib hesab etmir, lakin alyans Pekinin öz dəyərlərinə və maraqlarına meydan oxuduğuna inanır.

Bu fikri NATO-nun səlahiyyət müddəti başa çatan Baş katibi Yens Stoltenberq "Yomiuri" qəzetinə müsahibəsində bildirib.

"NATO Çini düşmən hesab etmir, lakin o, bizim dəyərlərimizə, maraqlarımıza və təhlükəsizliyimizə meydan oxuyur", - deyə o vurğulayıb. Stoltenberq, həmçinin iddia edib ki, Çin Tayvanı və ona qonşu olan ölkələri təhdid edir.

Bundan əlavə, NATO-nun Baş katibi Çini Rusiyaya hərbi dəstək verməkdə ittiham edib. O bildirib ki, bununla Pekin İkinci Dünya müharibəsindən sonra Avropada ən böyük müharibəni alovlandırır".

## ABŞ ordusu raket istehsalı ilə bağlı 4,5 milyard dollarlıq müqavilə imzalayıb



ABŞ ordusu "Lockheed Martin" şirkətinə "Patriot" hava hücumundan müdafiə sistemləri üçün 870 raket istehsalı ilə bağlı 4,5 milyard dollarlıq müqavilə imzalayıb.

Bu barədə Amerika silahlı qüvvələrinin bəyanatında deyilir.

Sənəddə qeyd edildiyi kimi, müqavilə 870 PAC-3 MSE raketlərinin və müvafiq avadanlıqların alınmasını nəzərdə tutur.

Bəyanatda iddia edilir ki, PAC-3 MSE raketləri taktiki, qanadlı, hipersəs raketləri və təyyarələr daxil olmaqla təhlükələrə qarşı dura bilər.

Müqavilə müddəti 2027-ci il 30 iyuna qədərdir.

## Gürcüstanda hərbi təyyarə qəzaya uğrayıb



Gürcüstanın Kvemo Kartli bölgəsinin Bolnisi bələdiyyəsinin Tapan (Dişvili) kəndi yaxınlığında bir hərbi təyyarə qəzaya uğrayıb.

Bu barədə Gürcüstan Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilir ki, iyulun 2-də aviasiya vasitələrinin cəlb olunduğu planlaşdırılmış hərbi təlimlərin birində Müdafiə Qüvvələrinə məxsus Su-25 təyyarəsi qəzaya uğrayıb. Nəticədə Müdafiə Qüvvələrinin Aviasiya və Hava Komandanlığının pilotu Kaxaber Zurabaşvili həlak olub.

Hadisənin səbəblərinin müəyyənləşdirilməsi məqsədilə Müdafiə Nazirliyinin müvafiq xidmətləri tərəfindən araşdırma aparılır.

**AZƏRTAC-ın materialları əsasında**

# Həqiqi hərbi xidmətə çağırılanlarla bağlı bəzi kateqoriyalar üzrə yekun tibbi müayinə necə aparılır?







Prezident İlham Əliyevin Fərmanına əsasən, iyulun 1-dən müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi zamanı aşağıdakı 4 kateqoriya üzrə qərarlardan birinin qəbul edilməsi üçün onların yekun tibbi müayinəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilir:

- sıradankənar həqiqi hərbi xidmətə yararlılıq haqqında ("B" kateqoriyası);
- sağlamlıq vəziyyətinə görə həqiqi hərbi xidmətə müvəqqəti yararsız hesab edilməklə çağırışa möhlət verilməsi haqqında ("Ç" kateqoriyası);
- dinc dövrdə həqiqi hərbi xidmətə yararsızlıq, müharibə dövründə məhdud yararlılıq haqqında ("C" kateqoriyası);
- həm dinc dövrdə, həm də müharibə dövründə hərbi xidmətə yararsızlıq haqqında ("D" kateqoriyası).

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, yekun tibbi müayinəni nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi (DTSERA) hərbi həkim komissiyalarının tibbi müayinəsinin nəticələri və müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların əyani tibbi müayinəsi əsasında aparır.

Yekun tibbi müayinə prosesinə hazırlıq məqsədilə nazirlik tərəfindən yekun tibbi müayinə prosedurunun rəqəmsal infrastrukturu qurulub. Bu da qeyd olunan prosedurun həyata keçirilməsində şəffaflığın və çevikliyin, obyektiv yanaşmanın təmin olunmasına xidmət edir.

Nazirliyin "Tibbi şəhadətləndirmə" altsistemi hazırlanaraq bu altsistemlə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və digər aidiyyəti qurumların informasiya bazalarının inteqrasiyası, elektron məlumat mübadiləsi imkanları təmin edilib.

Müayinə ilə bağlı məlumatlar müvafiq qurumlardan həmin altsistem üzərindən qəbul edilərək toplanır və yekun müayinələrin nəticələri bu altsistemə daxil edilərək rəsmiləşdirilir. "Vətəndaş qəbulu" altsisteminin tənzimlənərək "Tibbi şəhadətləndirmə" altsisteminə avtomatik inteqrasiyası təmin edilib.

Yekun tibbi müayinələrin həyata keçirilməsi üçün DTSERA-nın müasir tibbi avadanlıqlarla təchiz edilmiş Tibbi Qiymətləndirmə Mərkəzi yaradılıb.

Müvafiq qanunvericiliyin təkmilləşdirilməsi işləri də aparılıb, müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi zamanı yekun tibbi müayinənin aparılması qaydası Nazirlər Kabineti tərəfindən təsdiq edilib.

Habelə Nazirlər Kabinetinin müvafiq Qərarı ilə "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"də dəyişiklik edilərək, hərbi xidmətə çağırılanlarla bağlı tibbi müayinələrdə qabaqcıl dünya təcrübəsinə uyğun yeni meyarlar müəyyən olunub.

Müayinə prosesində iştirak edəcək DTSERA və digər müvafiq qurumların əməkdaşları üçün təlimlər keçirilib və yekun tibbi müayinə sahəsi üzrə müvafiq bilik və bacarıqlara malik mütəxəssis heyəti formalaşdırılıb.

**Yekun tibbi müayinə proseduru aşağıdakı kimidir:**

- Çağırışçıya dair verilmiş rəy Mərkəzi Hərbi Həkim Komissiyası tərəfindən təsdiqləndiyi halda çağırışçının yekun tibbi müayinəsinin aparılması üçün e-sistem üzərindən Agentliyin "Tibbi şəhadətləndirmə" altsisteminə göndəriş (Forma 44) daxil edilir.
- Göndəriş əsasında çağırışçı üçün əyani müayinəyə elektron növbə təyin edilir.
- Növbəlilik əsasında çağırışçılar Agentliyin həkimləri tərəfindən əyani şəkildə tibbi müayinələrdən keçirilir.
- Müayinəyə dair qəbul edilmiş qərar elektron sistemə daxil edilir və qərar barədə çağırışçıya elektron qaydada məlumat verilir.

# İdman

## Azərbaycan boks millisi Avropa çempionatını dörd medalla başa vurub




Azərbaycanın yeniyetmələrdən ibarət boks millisi Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda keçirilən Avropa çempionatında uğurlu çıxış edib.

Yığma yarışın son günündə daha 2 medalı rəsmiləşdirib.

Komandamızın heyətində Nihat Qasımov (48 kiloqram) və Səftər Məmmədzadə (+80 kiloqram) gümüş mükafata yiyələniblər.

Nəticədə yığmamız Avropa birinciliyini 4 medalla başa vurub. Daha öncə Aylin Nəzərova (48 kiloqram) və Əminə Tağı (52 kiloqram) fəxri kürsünün üçüncü pilləsinə yüksəlib.

## Azərbaycan sərbəst güləş millisi Avropa çempionu olub



Azərbaycanın sərbəst güləş millisi Serbiyanın Novi Sad şəhərində keçirilən 17 yaşlılar arasında Avropa çempionatına birinci olub.

Qitə birinciliyində 2 qızıl, 2 gümüş, 2 bürünc medal qazanan yeniyetmələrdən ibarət sərbəst güləş millimiz 160 xal toplayaraq komanda hesabında çempion olub.

Yığmamız ikinci pillədəki Ermənistanı 36 xal qabaqlayıb. Türkiyə (119 xal) isə üçüncü yeri tutub.

Xatırladaq ki, Muhamməd İsmayılov (51 kiloqram) və İsa Yusibov (65 kiloqram) qızıl, Hüseyn İsmayılovla (60 kiloqram ) Muxamad Qantemirov (110 kiloqram) gümüş, Hacıhüseyn Əhmədzadə (48 kiloqram) və Hüseyn Hüseynov (55 kiloqram) isə bürünc medal qazanıblar.

## "Asiya uşaqları" Oyunları: Azərbaycan üzgüçüsü qızıl medal qazanıb



Rusiyanın Yakutsk şəhərində keçirilən "Asiya uşaqları" VIII Beynəlxalq İdman Oyunlarının üzgüçülük üzrə yarışlarına yekun vurulub.

4x50 metr məsafəyə sərbəst estafet yarışlarında belaruslu Roman Halmak, Usevalad Sarakavik, tailandlı Mekchai Nithivat ilə birgə çıxış edən Süleyman İsmayılzadə 1 dəqiqə 37 saniyə vaxtla finiş xəttinə çataraq yarışın qızıl medalının sahibi olub.

Beləliklə, Azərbaycan komandasının aktivindəki mükafat sayı 5-ə yüksəlib. Daha öncə idmançılarımız 2 qızıl, 2 gümüş və 1 bürünc medala yiyələnib.

## Azərbaycan karateçisi beynəlxalq turnirdə qızıl medal qazanıb




Azərbaycan karateçisi Rahib Əzim Xorvatiyanın Poreç şəhərində keçirilən "Karate 1 Liqa" yarışında qızıl medal qazanıb.

İdmançı 76 kiloqramdan yuxarı çəki dərəcəsində fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Qeyd edək ki, daha əvvəl Aysu Əliyeva həmin turnirdə bürünc medala sahib çıxıb.

**AZƏRTAC-ın materialları əsasında**

*Maraq dünyamız*

# Heyrətamiz memarlıq abidəsi



Mədain Saleh, Əl-Hicr və ya Heqra Səudiyyə Ərəbistanının heyrətamiz qaya strukturları ilə məşhur olan 2000 yaşlı qədim memarlıq abidəsidir. Kompleksə 111 qaya qəbirləri (e.ə. I əsr), qüllələr, yaşayış məntəqələri, eləcə də karvan ticarətinin mərkəzi olmuş qədim Nəbatilər şəhəri - Heqra ilə bağlı hidrotexniki qurğular sistemi daxildir. Burada, həmçinin Nəbatilər dövründən öncə mövcud olmuş dövrə aid 50-yə yaxın qayaüstü yazı aşkar edilib.

Mədain Saleh Səudiyyə Ərəbistanında Dünya İrsi siyahısına salınmış ilk obyektdir. O, 2008-ci ildən UNESCO-nun Ümumdünya İrs Siyahısına da daxil edilib.

Kompleks bütün zamanlarda həm alimlərdə, həm də səyyahlarda böyük maraq doğurub. Onlar bütöv bir şəhəri nəhəng qayaların arasında necə oymağı və burada tapılan məzarların kimə məxsus olması ilə maraqlanıblar.

Mədain Saleh (ərəb dilindən "Peyğəmbər Salehin şəhəri") müxtəlif mənbələrdə Quran surəsinin şərəfinə "Əl-Hicr" və ya "Hicr" adlanır, bu ad yunan müəllifləri tərəfindən istifadə edilmişdir. Səudiyyə Ərəbistanının şimal-qərbində, Əl-Ula vahəsinin şimalında olan səhrada yerləşir. Bir zamanlar bu yerdən karvanlar keçirmiş və Mədain Saleh Ərəbistan yarımadası, Aralıq dənizi və Asiya arasında ticarət mərkəzi olmuşdur.

Nəbatilər krallığının incəsənəti və memarlığı müxtəlif xalqların təsiri altında formalaşmışdır. Ona görə də Mədain Salehdə misirlilərin, finikiyalıların, assuriyalıların və ellinist İsgəndəriyyənin ənənələri xüsusilə nəzərə çarpır. Onu tez-tez Nəbatilər dövlətinin məşhur paytaxtı - müasir İordaniyanın qədim şəhərindən 500 km. aralıda yerləşən Petra ilə müqayisə edirlər.

Qədim qəbirlərin fasadlarında müxtəlif yerlərdən götürülmüş memarlıq elementləri qorunub saxlanılır.

**Tarixi:** Təxminən 2000 il əvvəl burada - Ərəbistan səhrasının ortasında karvan ticarətinin mərkəzi olan Nəbatilər şəhəri - Heqra yerləşib. Şəhərin çiçəklənmə dövrü eramızdan əvvəl II əsrdə başlamış və təxminən dörd əsr davam etmişdir. Ədviyyat ticarətinin inkişafı, kifayət qədər su ehtiyatı və zəngin məhsullar Heqranı Şərqin ən zəngin şəhərlərindən birinə çevirmişdir. Romalılar səhra şəhərini II əsrdə fəth ediblər və Roma İmperiyası Qırmızı dəniz üzərindən gəmi ilə ticarət etməyə üstünlük verdiyinə görə səhradan keçən karvanlar getdikcə yox olma səviyyəsinə gəlir - şəhər tənəzzülə uğrayır və əvvəlki gücünü itirir.

Osmanlılar dövründə qədim şəhərin yaxınlığında dəmir yolu çəkilib və bu yol ilə həcc zamanı livanlı, türk və fələstinli zəvvarlar Məkkəyə ziyarətə gediblər.

**"Azərbaycan Ordusu"**

Kiçik leytenant Məlikov Anar Vəli oğluna məxsus SQ № 0025027 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş redaktorun müavini
mayor
Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
kapitan
Günay TAĞIYEVA

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 336
Nüsxə 4650